

Əbülfət MƏDƏTOĞLU

# Ömürdə gün bir yarpaqdır

## *Hüseyn Kürdoğlunun ruhuna ehtiramla*

**Bəlli bir gerçəklik var. Onu heç kim dana bilməz. Bütün canlılar, o cümlədən də insan Allahın ona verdiyi ömrün bütün pillələrini, təbii ki, Allahın izni ilə ,yaşayır, addımlayır, keçir. Yəni beşikdən məzara gedən yol körpəliklə, uşaqlıqla, gəncliklə, yaşlı, qoca və ahıllıqla bir növü işarələnibdi. Hərəsinin də özünə görə mənası olduğu kimi özəlliyi də var. Adətən insan daha çox uşaqlıq və gənclik illərinin arxasınca boylanır. Çünki bu zaman kəsiyində sərbəstliklə yanaşı, üzərində valideyn himayəsi də olduğu üçün daha ərkli, daha ürəkli olur Allah bəndəsi. Digər tərəfdən uşaqlıq və gənclik elə bir mərhələdir ki, burdakı dəliqanlılıq da xəyallara qapılıb arzuların dalınca at çapmaq da başqa bir aləmdi. Amma neyləyəsən ki, hər bir zaman kəsiyinin sonu mütləqdi. Bu mənada uşaqlıq yerini gəncliyə verəndə nə qədər seviniriksə, gənclik əldən çıxandan sonra da bir o qədər təəssüflənir və kövrəlirik. Baxmayaraq ki, hər yaşın öz gözəlliyi və özəlliyi var.**

Bütün söz adamları az ya çox dərəcədə , həmişə yaşdan gileylənib, xüsusilə qocalıqdan. Bunun səbəbləri kifayət qədərdir. Amma ən vacibi, ən zərurisi, yəni etirafı qaçılmaz olan əldən çıxan günlərin qədrini bilməməkdi, dəyərləndirməyi bacarmamaqdı. Həmin günlərə sayqısızlıq, biganəlikdi. Ona görə də "Ötən günə gün çatmaz" deyib özümüzə nə qədər təsəlli versək də, amma bu təsəllidən də heç nə çıxmır. Əksinə, təsəlli də xatirələri oyadır və...

Bəli, Hüseyn Kürdoğlunun imzası Azərbaycan ədəbi ictimaiyyətinə kifayət qədər məlumdur. Onun sözünün sambalı da, özünün bir şəxsiyyət kimi çəkisi də, həmişə sayqı ilə qiymətləndirilir, sevgi ilə anılır. Bugünlərdə yenə üz tutdum Hüseyn Kürdoğluna. Onun "Yaralı torpağım, yaralı sevgim" kitabı ilə baş-başa qaldım. Bu kitabdakı şeirlərin ovqatına qoşulub Hüseyn Kürdoğlunun doğulub boya-başa çatdığı, at oynatdığı Laçın bölgəsinə üz tutdum. Hər şeirdə Laçını bir də gördüm, bir də tanıdım, bir də sevdim və birdən diqqətimi şairin "Söz qocalmasın" şeiri çəkdi. Oxudum şeiri. Oxuya-oxuya da mən də gəncliyimi, uşaqlıq illərimi gözümün önünə gətirdim. Necə deyərlər, özümün laçın vaxtlarım bugünkü durumumla heç cür uyğun gəlməsə də, təsəllim Hüseyn Kürdoğlunun poetik məntiqi ürəyə sərinlik gətirən misraları oldu. Hüseyn Kürdoğlu yazıb ki:



***Ağ bulud, saçıma tənəylə baxma,***
***Könül qocalmasın, göz qocalmasın.***
***Dünya şairləri vaxtsız qocaldır,***
***Kaş ki, gözəlləri tez qocalmasın.***

Mənə elə gəlir ki, bu Hüseyn Kürdoğlunun həm özünə, həm mənə, həm də yaşdan gileyli olan hər kəsə təsəlli ilə yanaşı, gözəllərə də bir sayqı, bir ehtiramdı. Hətta onlar üçün edilən duadı. Axı gözəllər elə gözəl olduqları üçün hər birimizə ilham mənbəyi, sevgi ümmanı, bir də həyat eşqi bağışlayan onlardı. Baxmayaraq ki, mən də bu qocalığın nə demək olduğunu özüməməxsus şəkildə ifadə etməyə çalışmışam. Mən də yazmışam ki:

***Mən ömür içində ömür əridib,***
***Günlərin içində gün kiridirəm...***
***Sevginin əlindən tutub yeridib -***
***Ölməyə qoymayıb qəm dirildirəm...***

Bu ovqatın içində mənə güc gələn, mənim özümə təslim edən, əvvəl qeyd etdiyim kimi Hüseyn Kürdoğlunun tərif və tərənnüm etdiyi gözəllikdi, gözəllərdi. Tam səmimi, birmənalı, həm də şair coşqusu ilə yazılan bu misralar ürəyin döyüntüsünü də artırır, gözlərinin nurunu da. Özün də hiss etmədən qayıdırsan gəncliyə, üz tutursan cavanlığa. Ona görə ki:

***Gözəllik sevdası dərindir, dərin,***
***Sərrafam qədrini billəm gövhərin.***
***Gəncliyin barını vaxtında dərin,***
***Ürək həsrət çəkib, üz qocalmasın.***

Görün sevginin, istəyin gücü nə qədər ölçüsüz, nə qədər dünyəvi və əbədidir!.. Bu ölçüsüz və əbədi olan da sevgi adlanır! Hüseyn Kürdoğlu da həmin sevgidən bir şair istəyi ilə, şair duyumu ilə, bir az da şair yaşamı ilə gözəlliyin epitetlərini oxucuya çatdırır. Əslində bu çatdırmaqdan daha çox xatırlatmaqdır. Yəni, şair deyir ki, sevginin vüsalı üçün yaşamaq, ona can atmaq lazımdır ki, həsrətdən nə ürək, nə də üz qocalmasın. Bax, elə mən də həmin ovqatın içərisində öz-özümə və bir az da sizə deyirəm ki:

***Siz də yaxınlaşın təsəlli üçün,***
***Məni hər çəkdiyim gün "ah"a bükün...***
***Sevməkdir günahım vallah, büsbütün -***
***Siz məni elə bu günaha bükün...***

Birbaşa və yaxud da dolayısı ilə hər kəs sevgini həmişə etiraf edib. Onun vüsalı, həsrəti həmişə ürəkləri titrədib, dodaqları əsdirib, gözləri bulud yuvası edib. Deməli, əbədi olan bu hiss insanı ruhən cavan saxlayır. Baxmayaraq ki, fizioloji olaraq biz gəncliyin arxasınca həmişə boylana-boylana qalırıq. Ona görə də Hüseyn Kürdoğlu öz təcrübəsindən, yaşamından, dünyaya gəlişindən, gedişindən çıxış edərək birmənalı şəkildə sevgini qocaltmağı günah sayır və hər kəsə üz tutaraq yazır ki:

***Sevənlər min səfa görsün baxtında,***
***Otursun eşqinin uca taxtında.***
***Şair Kürdoğlu da qoca vaxtında,***
***Gözəldən yazır ki, söz qocalmasın.***

Gördünüzmü, Hüseyn Kürdoğlu necə ustalıqla, necə məharətlə açıb dedi ən böyük mətləbi, ən böyük gerçəyi göstərdi oxucusuna. Bu yerdə mən də mütləq mənada etiraf etməliyəm ki, söz adamını qocalmağa qoymayan həm də onun canındakı, qanındakı, ruhundakı söz bağçasının al-əlvanlığıdır. Bu bir-birindən mənalı, bir-birindən dəyərli və tutumlu sözlər günə gün calayır, ömürə ömür... Şairə yazıb-yaratmaq, gözəlliyi dəyərləndirmək üçün qol-qanad verir, onun ilham çeşməsinin öz təbindən düşməyə qoymur. Bax, mən də bu yolun yolçusu olduğumdan bir anlıq həmin şair Kürdoğlunun qoca vaxtında dediklərini öz həyatımda görür, öz yaşamımda hiss edir və ona cavab olaraq deyirəm:

***Həyat zərbələri qılıncdan da sərt***
***Ürəyin tüstüsü ərşə ucalır...***
***Deyəsən tamamdı kəsilən o şərt -***
***Qocalır Əbülfət, yaman qocalır...***

Bəli, bu gün hər kəs öz ovqatında öz yaşının, ruhunun yaratdığı auranın içərisindədi. İstər sağa bax, istər sola, istər yuxarı, istər aşağı. Bütün baxış nöqtələri o zaman içində qığılcım yaradır ki, onlar toqquşurlar.

Bax, bu yerdə sevgi yaşadır səni... Bax, bu yerdə qocalmaq yadımdan çıxır. Bu yerdə hətta əlindəki əsaya da söykənib gözəllikdən zövq alırsan. Və içindəki ahı, həsrəti unudub bircə dilinə gələn kəlməni Allahın eşidə biləcəyi şəkildə pıçıldayırsan:

**- Yaradanına şükür!**

**Deməli, biz şükranlığımızı heç vaxt unutmalı deyilik. Çünki sevgidə söhbət yaşdan getmir. Yəni məsələyə yaşın dəxli yoxdur.**